**“Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol”un təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il mayın 16-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol” təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 oktyabr 2024-cü il
№ 37-VIIQ

**Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair**

**PROTOKOL**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı bundan sonra da inkişaf etdirmək məqsədilə, həmçinin 2007-ci il 2 may tarixli Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Sazişin 11-ci maddəsini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə (bundan sonra - Saziş) aşağıdakı dəyişikliklər edilsin:

1. Sazişin 1-ci maddəsinin dördüncü abzasından sonra aşağıdakı redaksiyada yeni abzas əlavə edilsin:

“Fitosanitar sertifikat - Beynəlxalq Bitki Karantini və Mühafizəsi Konvensiyasının sertifikat modelinin nümunəsinə uyğun tərtib edilmiş, yükün fitosanitar idxal tələblərinə uyğun olduğunu təsdiq edən rəsmi kağız sənəd və ya onun rəsmi elektron ekvivalentidir.”.

2. Sazişin 2-ci maddəsinin ikinci və üçüncü abzasları aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;

Belarus Respublikası Hökuməti tərəfindən - Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi.”.

3. Sazişin 5-ci maddəsinin altıncı və səkkizinci abzasları ləğv edilsin.

4. Sazişin 6-cı maddəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“Təkrar ixrac edildikdə, karantin nəzarətində olan material, ixrac edən Tərəfin fitosanitar sertifikatı və həmin materialın istehsal olunduğu ölkənin fitosanitar sertifikatının əsli və ya onun ixrac edən Tərəfin səlahiyyətli orqanı tərəfindən təsdiq edilmiş surəti ilə müşayiət olunmalıdır.”.

5. Sazişin 9-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

“Tərəflər idxalçı ölkənin milli qanunvericiliyi ilə müəyyən edilmiş yerlərdə dövlət fitosanitar nəzarəti aparan zaman karantin tətbiq edilən zərərli orqanizmlər aşkar etdikdə, karantin nəzarətində olan materialı onun sahibinin hesabına ixracatçıya qaytarmaq, yaxud zərərsizləşdirmək, yüklərin geri qaytarılması və ya zərərsizləşdirilməsi mümkün olmadıqda isə səlahiyyətli orqanların qərarı əsasında Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə, milli və beynəlxalq fitosanitar standartlara uyğun olaraq məhv etmək hüququna malikdirlər.”

6. Sazişin 10-cu maddəsinin üçüncü abzasına aşağıdakı redaksiyada yeni cümlə əlavə edilsin:

“Hər bir Tərəf özünün nəqliyyat və gündəlik xərclərini müstəqil şəkildə ödəyir.”.

**Maddə 2**

1. Bu Protokol qeyri-müəyyən müddətə bağlanılmışdır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Bu Protokol Sazişin ləğvi ilə eyni vaxtda ləğv edilir.

Bakı şəhərində 2024-cü il 16 may tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

| Azərbaycan Respublikası Hökuməti adından | Belarus Respublikası Hökuməti adından |
|---|---|
| *(imza)* | *(imza)* |